Moderator.az

# Adamlarımızı asanlıqla xərcləməyək!...




**30 Jun 2021**

İstanbulda, "İlin adamı" mükafatlarının təqdimetmə mərasimində Rumuniyadan olan türk əsill iş adamı, Rumıniya-Türkiyə Ticarət və Sənaye odalar başkanı Dr. Tamer Atalay mənə yaxınlaşıb "Sabir bəy, biz üzüntü içindəyik Ağlasığmaz bir işdir. Niyə belə oldu?"- dedi. Düzü, öncə onun nə haqda danışdığını anlamadım... Suallarının arası kəsilmirdi: " Azərbaycan nədən böylə bir iş gördü? Bu adamın Balkanlarda yapdığlarının dəyərini niyə bilmədiniz?" "Söhbət kimdən gedir?" - soruşanda "Sizin böyük elçinizi, Eldər bəyi deyirəm. Rumıniyada, Balkanlarda ad çıxarmışdı. Azərbaycan üçün onun yapdığı işləri başqa kimsə görə bilməzdi. Çox başarılı və ağıllı adamdır."

Tamer bəy doğrudan da ağlamsınaraq danışırdı: "Bizim ona sayqımız böyükdür. Azərbaycanın Cünhur Başkanı, sayın İlham Əliyevə müraciət etmək istəyirik! Biz ilham Əliyevi gə çox sevirik. Bəlkə ona yanlış bilgi veriblər. Belə bir adamı həbsdə saxlamaq günahdır".

Hörmətli Tamer Atalayın səmimiyyətini, sevgisini duymamaq mümkün deyildi... Ümid verməkdən başqa yolum yox idi. "İnşaallah, hər şey yaxşı olar. Biz, Azərbaycanın bir dəstə aydını və millət vəkili də hörmətli prezidentimizə müraciət edib Eldar Həsənovun xidmətlərinin nəzərə alınmasını və onun haqqında olan qəti həbs imkan tədbirinin dəyişdirilməsini rica etmişik... Narahat olmayın, məsələyə ədalətlə baxılacağına inanırıq..."

Rumınıyalı dostumuzun Eldar Həsənovun gördüyü işlər barədə danışıqları və onun taleyi üçün bir qardaş kimi narahat olması məni xeyli düşündürdü. İşin içini, Eldarın günahının nədən ibarət olduğunu bilmirəm. Ancaq bir şeyi bilirəm ki, ədalət tərəzisinə qoyulsa onun xidmətləri hər hansı qüsurundan qat-qat ağır olar... Adamlarımızı asanlıqla xərcləməyək!...

**Sabir Rüstəmxanlı,**
**Millət vəkili, Xalq şairi**